Ədəbiyyat QƏZETİ
15 iyun / 2021

# Kərəm KÜRQIRAXLI-70



Sizi - istedadlı şairimizi 70 yaşınızın tamam olması münasibətilə təbrik edirik.

Siz bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlamısınız. İlk qələm təcrübələriniz mətbuatda işıq üzü görmüşdür. 1994-cü ildə "Sayası hardan, mayası eldən" adlı ilk kitabınız Azərnəşr tərəfindən çap edilmişdir. Sonralar "Bağışla, Allahım, bizi bağışla", "Ümidim Peyğəmbər şəfaətində, əlim Allahın ətəyindədir", "Bəşərə rəhm eylə, ey qadir Allah", "Ya Allah, Məhəmməd, bir də ya Əli", "Müdrik kəlamlar", "Hikmətli misralar", "Məhşərdə Allaha hesabatım var", "Allah sevən kəsə bəndə neyləyər?" kitablarınız poeziyasevərlərin ixtiyarına verilmişdir. 2010-cu ildə İran İslam Respublikasında kitabınız çapdan çıxmışdır. Şeirləriniz Vətənə sədaqət, xalqa məhəbbət ruhunda köklənmişdir.

1969-cu ildə keçmiş Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmisiniz. Uzun müddət ixtisasınız üzrə məsul vəzifələrdə çalışmısınız.

Hörmətli Kərəm müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**